ISSN: 2710-9960 (Print)
ISSN: 2710-8432 (Online)

JOURNAL OF "HISTORY OF SCIENCE"
Cild 2, Say 2, Sıra 4, 2021, 18-25

DEVELOPMENT FEATURES OF CHILDREN'S ARTISTIC THINKING THROUGH DESIGN

Aynura Hashimova[1]

УДК 373.3\5.
КВТ 74.100.5

Keywords:

Design
Young students
Descriptive activity
Artistic and technical activity
Artistic-aesthetic
Preschool period
Application
Fine arts
Artistic thinking
Planning
Design
Construction

ABSTRACT

In the works of young schoolchildren, as well as in the handicrafts of painting, installation, and handicrafts, a certain part or all of the visible aspects of the objects and objects they see and observe in life are taken into account. This is natural. Because the micro and macro parts of the surrounding world leave a certain mark on the human mind, and if necessary, these signs are described and glorified. Such a position is based on the laws of general thinking.

For many years, I taught fine arts to children of all ages in out-of-school art circles at the State Gallery of Fine and Applied Arts, known as the Children's World Gallery, where I worked for many years. Among these age groups, small kindergarten-age children were involved in small clubs. School-age children were active in middle-aged clubs. At the same time, in senior age groups, senior students spent their free time studying academic painting courses in fine arts.

The research was conducted at the Gallery of Fine and Applied Arts, which I headed and taught for many years.

[1]. Doctor of Philosophy in Art History and on pedagogy (with two indexes)
aynura.hashimova@mail.ru
Received: 22.04.2021
Accepted: 07.06.2021

DİZAYN VASİTƏSİLƏ UŞAQLARIN BƏDİİ TƏFƏKKÜRÜNÜN İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

Aynurə Həşimova[1]

УДК 373.3\5.
KBT 74.100.5

Açar sözlər:

Dizayn
Kiçik yaşlı məktəblilər
Təsviri fəaliyyət
Bədii və texniki fəaliyyət
Bədii-estetik
Məktəbəqədər dövr
Applikasiya
Təsviri sənət
Bədii təfəkkür
Planlaşdırma
Layihələşdirmə
Konstruksiya etmə

ANNOTASİYA

Kiçikyaşlı məktəblilərin yaradıcılığında, o cümlədən rəsm, quraşdırma, yapma üzrə əl işlərində həyatda gördükləri, müşahidə etdikləri əşya və obyektlərin müəyyən bir hissəsi, yaxud bütövlükdə görünən tərəfləri nəzərə çatdırılır. Bu təbii bir haldır. Çünki ətraf aləmin mikro və makro hissələri insanın şüurunda müəyyən iz salır və lazım gələn hallarda həmin əlamətlər təsvir və tərənnümünü tapır. Belə bir mövqe ümumi təfəkkür qanunları əsasında meydana çıxır.

Uzun illər rəhbərlik etdiyim Uşaq Dünyası Qalereyası olaraq tanınan Dövlət Təsviri və Tətbiqi Sənət Qalereyasında təşkil edilən məktəbdənkənar incəsənət yönümlü dərnəklərdə təsviri sənətdən dərs dediyim müxtəlif yaşlı uşaqlara, təsviri sənətlə yanaşı, tətbiqi sənətin sirlərini öyrədərək eyni zamanda dizayn mahiyyətinin anlayışını da başa salırdım. Bu yaş qrupları arasında kiçik bağça yaşlı uşaqlar , kiçik yaşlı dərnəklərdə məşğul olurdular. Məktəb yaşlı uşaqlar isə orta yaş qrupu dərnəklərdə fəaliyyət göstərirdilər. Eyni zamanda böyük yaş qrupuna aid dərnəklərdə də böyük sinif şagirdləri öz asudə vaxtlarını təsviri sənətin akademik rəsm kurslarını öyrənməyə həsr edirdilər.

Elmi axtarışlar məhz uzun illər rəhbərlik etdiyim və eyni zamanda dərs dediyim Təsviri və Tətbiqi Sənət Qalereyasında aparılıb.

[1] Azərbaycan Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutunda böyük elmi işçi, Sənətşünaslıq və pedqoqika üzrə fəlsəfə doktoru (iki indekslə)
aynura.hashimova@mail.ru
Məqalə redaksiyaya daxil olmuşdur: 22.04.2021
Təkrar işlənməyə göndərilmişdir: 12.05.2021
Çapa qəbul edilmişdir: 07.06.2021

ISSN: 2710-9960 (Print)
ISSN: 2710-8432 (Online)

ОСОБЕННОСТИ РАЗВИТИЯ ДЕТСКОГО ХУДОЖЕСТВЕННОГО МЫШЛЕНИЯ ЧЕРЕЗ ДИЗАЙН

Айнура Гашимова[1]

УДК 373.3\5.
КВТ 74.100.5

Ключевые слова:

Дизайн
Юная школьница
Описательная деятельность
Художественно-техническая деятельность
Художественно-эстетическая
Дошкольный период
Аппликация
Изобразительное искусство
Художественное мышление
Планирование
Дизайн
Строительство

АННОТАЦИЯ

В работах юных школьников, а также в ремеслах по живописи, инсталляции и рукоделии учитывается определенная часть или все видимые аспекты предметов и предметов, которые они видят и наблюдают в жизни. Это естественно. Потому что микро и макро части окружающего мира оставляют определенный след в сознании человека, и при необходимости эти знаки описываются и прославляются. Такая позиция основана на законах общего мышления.

В течение многих лет я преподавал изобразительное искусство детям всех возрастов во внешкольных художественных кружках Государственной галереи изящных и прикладных искусств, известной как Галерея «Детский мир», где я проработал много лет. Среди этих возрастных групп маленькие дети дошкольного возраста были вовлечены в небольшие клубы. Дети школьного возраста были активны в клубах среднего возраста. В то же время в старших возрастных группах старшеклассники свободное время проводили на академических курсах живописи в изобразительном искусстве.

Исследования проводились в Галерее изящных и прикладных искусств, которую я возглавлял и преподавал много лет.

[1]. Доктор философии по искусствоведению, и педагогики (с двумя индексами)
aynura.hashimova@mail.ru

GİRİŞ

Dizayn yaradıcılığı sintetik təbiəti ilə diqqəti cəlb edir. Buna görə də müxtəlif nəsildən olan insanların, o cümlədən uşaqların və yeniyetmələrin bədii-estetik inkişafında mühüm rol oynayır. Əgər ən görkəmli rəssamların, heykəltəraşların həyat yoluna nəzər salsaq görərik ki, onlar sənət aləminə ilk uğurlu addımlarını məhz məktəbəqədər dövrdə atmış, böyük sənətə gedən yolun cığırına düşmüşlər. Uşaqlar hələ məktəbəqədər dövrdə, 3-5 yaşlarında çəkdikləri rəsmlər, quraşdırdıqları ev-evciklə, bağ-bağatla böyüklərin nəzər-diqqətini cəlb etməyə çalışırlar. «Hər bir uşaq kəşf olunmamış dünyadır», - deyənlər də haqlıdırlar. Doğrudan da müxtəlif yaş dövrünü keçirən uşaqların ətraf aləmə-təbiət və cəmiyyət hadisələrinə, ətrafda olan əşya və obyektlərə, ayrı-ayrı insanların peşələrinə, özlərini necə aparmalarına xüsusi maraq göstərmələri onların incəsənət sahəsindəki mövzu, janr seçiminə müsbət təsir göstərir.

Müşahidələr, əldə olan işlərin təhlili göstərir ki, məktəbəqədər dövrdə uşaqların əli qələm, karandaş tutduqları vaxtda, ibtidai siniflərdə oxuduqları dövrdə ətraf aləmdə gördükləri əşya və obyektlərin şəklini çəkməyə, onların formasını qurmağa daha çox meyl edirlər.

«... Uşaqlar şəkil çəkmək, yapmaq applikasiya ilə özləri düzətdikləri oyuncaqlar hazırlamaqla məşğul olarkən xətlərin və rənglərin harmoniyasını başa düşməyi öyrənir, gözəllik haqqında təsəvvür alırlar» .

Sitat şəklində istinad etdiyimiz bu fikirlərdə uşaqların bədii təfəkkürünün və bunun nəticəsi olan estetik fəaliyyətin müxtəlif cəhətləri əks olunmuşdur. İlk baxışda elə təsəvvür yaranır ki, həmin fikirlərdə erkən yaşlarında uşaqların rəsmetmə qabiliyyətinin, təsviri fəaliyyətinin əsas xüsusiyyətləri nəzərə çatdırılmışdır. Bu doğrudan da belədir. Lakin uşaqların bədii və texniki fəaliyyətinin əsas cəhətləri kimi nəzərə çatdırılan həmin fikirlərdə dizayn yaradıcılığı ünsürləri də nəzərə çarpır. Çünki dizayn yaradıcılığı mahiyyətinə, əsas komponentlərinə görə təsviri sənətlə-təsviri fəaliyyətlə sıx bağlıdır.

İstər məktəbəqədər, istərsə də kiçikyaşlı məktəblilərin, yeniyetmələrin təsviri fəaliyyətində dizayn sənəti ünsürlərinin nəzərə çarpması öz növbəsində belə bir fikir söyləməyə əsas verir ki, onlar planlaşdırma, layihələşdirmə, konstruksiya etmə, təsvirin imkanlarına xüsusi diqqət yetirmə kimi bacarıq və keyfiyyətlərlə dizayn yaradıcılığına olan maraq və meyllərini nümayiş etdirirlər. Daha aydın olmaq üçün məktəbəqədər (3-5 yaşında) uşaqlarla apardığımız təcrübənin gedişinə diqqət edək:

Birinci mərhələ. Uşaqlara müxtəlif ölçülü tikinti materialları (müxtəlif ölçülü, müxtəlif rəngli kiçik taxta lövhələr, ağac, gül-çiçək müqəvvaları, bəzək vurma üçün əlverişli materiallar) verilir.

İkinci mərhələ. Uşaqlara tapşırılır ki, onlar həmin materiallardan istifadə edərək insanların həyatı, məişəti üçün lazım olan yerlərin maketini hazırlasınlar.

Üçüncü mərhələ. Hazır olan işləri özləri qiymətləndirirlər.

Üç mərhələdən ibarət olan həmin təcrübə maraqlı nəticəyə gəlməyə, müvafiq fikir söyləməyə əsas verir. Belə ki, təcrübə prosesində iştirak edən 10 nəfər uşaqdan 3-ü bir otaqlı mənzilin, 4 nəfəri iki otaqlı mənzilin maketini qurdu. Təcrübədə iştirak edən uşaqlardan 3 nəfəri isə oyun meydançasını yaratmağa üstünlük verdi.

Uşaqlardan 5 nəfəri mənzilə giriş yolunu xüsusi lövhələrlə göstərmiş və yolun kənarına güllər, yaşıl kollar «əkmişlər».

Mənzil quran uşaqlardan 2 nəfəri isə nədənsə bu cəhətə fikir verməmişdir.

Maraqlı cəhət budur ki, təcrübədə iştirak edən uşaqlar dizayn ünsürləri ilə başa gələn bu işləri düzgün qiymətləndirdilər və unudulan cəhətləri də qeyd etdilər.

Uşaqların qısa, lakin mühüm əhəmiyyət kəsb edən cavablarından belə məlum olur ki, onlar quraşdırdıqları evlərin daha gözəl olmasına, qapı və pəncərələrin rəngbərəng naxışlarla bəzədilməsinə, orada giriş yollarının nəzərə çarpmasına xüsusi səy göstərmiş, öz

«əsərlərində» dizayn ünsürlərinin tətbiqinə nail olmuşlar.

Yeri gəlmişkən qeyd edək ki, dizayn yaradıcılığı vasitəsilə uşaqların bədii və texniki təfəkkürünün inkişaf xüsusiyyətləri ilə bağlı istər məktəbəqədər, istərsə də kiçik məktəbyaşı dövründə uşaqların bü cür işlərinə biganə qalanlar, onları adi uşaq məşğuliyyətinin nəticələri kimi qiymətləndirənlər də var. Bizə elə gəlir ki, problemə bu cür yanaşılmasına haqq qazandırmaq olmaz. Çünki, uşaqların erkən yaşlarından yuxarıda göstərilən istiqamətlərdə yaradıcılığa meyl etmələri öz növbəsində bədii və texniki təfəkkürün yaradıcılıq məhsullarına çevrilən nəticələri kimi qiymətləndirilməlidir.

Uşaqların əl işləri, dizayn yaradıcılığı sahəsindəki yaradıcılıq işləri, eyni zamanda dizayn tərkibli rəsm işləri xüsusi diqqət və qayğı obyektinə çevrilməlidir. Belə bir cəhəti də unutmaq olmaz ki, uşaqlar həmin işləri müstəqil yerinə yetirirlər. Mövzu, məzmun, forma, vasitə cəhətdən ahəngdarlıq yaradan işlərə uşaqlar, yeniyetmələr xüsusi diqqət yetirirlərsə, deməli, uşaq düşüncəsi, uşaq təfəkkürü yaradıcı mahiyyət kəsb edir.

Dizayn yaradıcılığı üzrə müxtəlif formalı işlərə göstərilən maraq, bu sahədəki ilkin fəaliyyət uşaqların müxtəlif növ incəsənət sahəsi ilə, o cümlədən təsviri incəsənətin müxtəlif növləri ilə daha yaxından tanış olunması zərurətini qarşıya qoyur. Burada problemin belə bir cəhətini də unutmaq olmaz ki, dizaynı təsviri incəsənətdən, təsviri incəsənəti isə dizayn yaradıcılığından ayrı təsəvvür etmək nəzəri cəhətdən belə mümkün deyil. Çünki dizayn yaradıcılığı ilk mərhələsindən başlayaraq hər hansı əşya, məkan təsviri məhz rəsmetməklə nəzərə çarpır. Bununla belə, dizayn sənəti üzrə ilkin bacarıq və qabiliyyətlərin özünəməxsus spesifik xüsusiyyətləri var. Belə ki, əşyaları məqsədyönlü şəkildə nəzərdən keçirmək, əsas hissələrə ayırmaq, digər şəbəkələrdən asılı olduğu əsas hissələri müəyyənləşdirmək, bir-birilə müqayisə etmək, onların ümumi və fərqli cəhətlərini ayırd etmək kimi bacarıqlar məhz dizayn istiqaməti üçün səciyyəvidir.

Dizayn ilə sıx bağlı olan həmin cəhətlərlə yaxından ünsiyyət uşaqların təfəkkür qavrayışını, təxəyyül və yaddaşını inkişaf etdirir, duyğu və hiss üzvlərinə müsbət təsir göstərir. Unutmaq olmaz ki, bədii və texniki yaradıcılığın bütün növlərində milli xüsusiyyətlər əsas yerdə dayanır və bu fakt elmi araşdırmalar aparan tədqiqatçıların nəzər diqqətini daim cəlb etmişdir. Məsələn, memar zamanın istəyinə cavab verən tikili və yaxud ansambl ucaldarkən, rəssam möhtəşəm bir sənət əsəri yaradarkən, dünya şöhrətli bir xalçanın eskizini verən rəssam eyni zamanda onların bədii surətini, milliliyini işləmiş olur. Problemlə əlaqədar uşaqlara izah etmək lazımdır ki, əgər ölkəmizin təbii gözəlliyini dağlar, çaylar, göllər, meşələr, ətraf mühit müəyyənləşdirirsə, insan əliylə yaradılan gözəlliklər – şəhərlər, qəsəbələr, rayonlar, kəndlər, parklar, xiyabanlar, abidələr xalqın mədəni səviyyəsini əks etdirir. İncəsənətin gündəlik həyatda və istehsalatda, sənayedəki yeri haqqında söhbət aparılırsa o halda incəsənətin mühüm bir rolu olan memarlıqdan, habelə keçən əsrin 20-ci illərinin əvvəllərində formalaşmağa başlayan dizayndan danışmamaq mümkün deyil. Dizayn müasir cəmiyyətin mürəkkəb fəaliyyətinə uyğun olaraq maddi mühitin məqsədəuyğun qurulması, zövqlə hazırlanması üçün nümunəvi layihələr hazırlayan bir sənət növüdür.

Uşaqların bədii-estetik tərbiyəsi, onların bədii və texniki təfəkkür fəaliyyətinin inkişafını diqqət mərkəzində saxlayan mütəxəssis pedaqoqlar unutmamalıdırlar ki, dizayn sənəti və onun əsas vəzifəsi əşyanın funksiyası, onun məqsədəuyğun emal üsulları və bədii keyfiyyətləri arasında hormonik əlaqə insanı əhatə edən əşya mühitində isə rahatlıq, əlverişlilik və gözəllik yaradır.

Təfəkkürün ümumi əlamətlərini özündə əks etdirən bədii və texniki təfəkkür ətraf aləmdəki ayrı-ayrı əşya və obyektlərin təsiri, inikası ilə yaranır daha da inkişaf edir. Buna görə də məktəbəqədər dövrdən başlayaraq dizayn sənətinin əsasını təşkil edən layihələndirmə, quraşdırma bacarıqlarının əldə edilməsinə xüsusi diqqət yetirilməlidir. Çünki uşaqlar ətrafda baş verən hadisələrə biganə qala bilməz. Ayrı-ayrı əşya və obyektlər onlarda müxtəlif səpgili hisslər oyadır. Bu hissləri biruzə vermək üçün bədii

ifadə vasitələrindən istifadə edilir. Gördüklərinin ümumi əlamətlərini nəql etmək, habelə hər hansı əşya və məkanın səthini, formasını rəsm etmək, müvafiq yapma materialları (plastilin, gil və s.) ilə əks etdirmək səyilə çalışırlar. Bu prosesdə əmələ gələn işlərin daha uğurlu və təbii olması üçün onlarda aydın təsəvvür yaradılmalıdır.

Uşaqlarda bədii və texniki təfəkkürlə bağlı belə bir fikir formalaşdırılır ki, insanların həyat və məişətində geniş yer tutan əşya və avadanlıqlar onların özləri tərəfindən yaradılır. Bununla əlaqədar diqqəti cəlb edən maraqlı cəhətlərdən biri də budur ki, bu cür yaradıcılıq meyilləri hələ məktəbəqədər dövrdən özünü göstərir, get-gedə inkişaf edir, formalaşır.

Müşahidələr göstərir ki, bu prosesdə uşaqların yaradıcı əməyini daha səmərəli şəkildə təşkil etmək üçün onları quraşdırma, tərtibetmə üçün çox zəruri olan materiallarla təchiz etmək zəruridir. Çalışmaq lazımdır ki, uşaqlar hər bir məmulatın konstruktiv quruluşunu, onların müxtəlif hissələrinin bir-birilə əlaqəsini şüurlu şəkildə başa düşməyə alışsınlar. Heç şübhəsiz, əşyalar, təsvir obyektləri, onların bir-birilə əlaqəsi düzgün dərk edilirsə, onların bədii və texniki təsviri vasitələri ilə nəzərə çatdırılmasında da müəyyən ahəngdarlıq yaranacaq.

Belə bir cəhəti də yaddan çıxarmaq olmaz ki, bədii-estetik mahiyyəti ilə digər incəsənət növlərindən fərqlənən dizayn incəsənətinə müxtəlif yaş qrupuna malik olan uşaqlar, yeniyetmələr də xüsusi maraq göstərirlər. Bu hər şeydən əvvəl dizayn yaradıcılığının inkişafında mühüm rol oynayan ifadə vasitələri ilə əlaqədardır. Çünki hər hansı əşyanın, obyektin modelini layihələşdirərkən rəsmetmə və konstruksiya qurmaq elementlərindən istifadə olunur.

Bədii təfəkkürlə və dizaynla çox bağlı olan bu prosesdə iki mühüm istiqamət daha qabarıq şəkildə nəzərə çarpır.

Birinci istiqamət onların mövzu seçimi ilə əlaqədardır. Məktəbəqədər dövrdə olan uşaqlar və kiçikyaşlı məktəblilər müxtəlif formalı oyuncaqların, habelə həyat tərzinin normal inkişafına müsbət təsir göstərən vasitələrin, modellərinin tərtibatına çalışırlar. Heç şübhəsiz, bu prosesdə cinsi xüsusiyyətlərə uyğun maraq səviyyələri özünü göstərir. Belə ki, qızlar ən çox müxtəlif rəngli parçaların, evlərin, otaqların bəzədilməsini, gəlinciklərin təsvirini ön plana çəkirlər. Oğlanlar isə minik və yük avtomobillərinin, yaşayış evlərinin təsvirinə daha çox maraq göstərirlər.

İkinci istiqamət uşaqların seçdikləri mövzuya, obyektə uyğun olaraq təsvir vasitələrindən istifadə imkanları ilə əlaqədardır. Bu istiqamətdə dizayn üzrə təsviri fəaliyyət zamanı da müəyyən fərqlər nəzərə çarpır. Qızlar mövzu ilə bağlı modellərin təbii şəkildə həcmli təsvirinə xüsusi diqqət yetirirlər. Oğlanlar isə çox zaman həmin cəhətə fikir vermir, mövzunun-obyektin qrafik ifadə vasitəsilə təsvirinə nail olurlar.

Dizayn sahəsində hər iki istiqamət üzrə nəzərə çarpan bacarıq və qabiliyyətlər uşaqların, məktəblilərin təsviri fəaliyyətinin səciyyəvi cəhətləri kimi xarakterizə olunur.

Dizayn üzrə fəaliyyət prosesi o zaman bədii cəhətdən diqqəti cəlb edir ki, əşyanın, obyektin fəaliyyət funksiyası, onun məqsədəuyğun emal üsulları və bədii keyfiyyətləri arasında harmonik əlaqə yaranır.

Dizayn yaradıcılığı vasitəsilə uşaqların bədii və texniki təfəkkürünün inkişaf xüsusiyyətlərindən bəhs edərkən onun başlıca cəhətlərini də nəzərdən qaçırmaq olmaz.

Dizayn müasir cəmiyyətin mürəkkəb fəaliyyətinə uyğun olaraq maddi mühitin məqsədəuyğun qurulması, zövqlə hazırlanması üçün nümunələr hazırlayan bir sənət növüdür. Dizayn sözü bəzən yalnız müasir praktika ilə əlaqələndirilməyib, həm də cəmiyyətin müxtəlif inkişaf mərhələlərində yaradılan maddi aləmin morfoloji quruluşu kimi də mənalandırılıb. Dilimizdə işlənilən «ibtidai dizayn», «18 əsrin dizaynı» və s. dizaynla bağlı ifadələr məhz bu baxımdan başa düşülür. Dizayn insanı əhatə edən əşya mühitində rahatlıq, qənaətçilik və gözəllik yaradır.

Məhz bu baxımdan xalqımızın gələcəyi olan uşaqların, gənc nəslin şüurunda, təfəkküründə dizayn yaradıcılığı ilə bağlı bilgiləri möhkəmləndirmək, dərinləşdirmək üçün belə faktlara əsaslanmaq məqsədəuyğundur. Dizayn qərbdən gəldiyi üçün, xarici ölkələrin əhalisi, istər böyüklər

və istərsə də uşaqlar bu haqda daha çox məlumatlıdırlar. Artıq respublikamızda da dizayn haqda müəyyən məlumatlar, xarici ədəbiyyatdan tərcümə edilmiş əsərlər vardır. Lakin bunlar uşaqların dizayn fəaliyyəti ilə əlaqədar deyil.

Tədqiqatçı alimlərimizin, psixoloqların uzun illər boyu araşdırmalarına görə sübut edilib ki, yeni doğulan hər bir uşaq istedadla doğulur. Bu istedadı uşaqlarda tədricən inkişaf etdirmək, üzə çıxarmaq, parlatmaq üçün xüsusi şərait yaratmaq lazımdır. Uşaqlar şəkil çəkir, plastilindən fiqurlar düzəldir, onları müvafiq formaya salırlar. Bunlar da uşaqlarda ilk yaradıcılığın əlamətləri sayılır.
Bədii və texniki uşaq yaradıcılığını inkişaf etdirmək, bu problemləri həll etmək uğrunda səy göstərmək uzun illər ərzində olduğu kimi, indi də yaşadığımız cəmiyyətin ən mühüm məsələlərindən biridir. Məlum olduğu kimi dizayn incə-sənətdən yaranıb. Dizayn yaradıcılığının nə olduğunu uşaqlara anlatmaq, bu haqda anlayış yaratmaqdan ötrü ilk öncə bədii yaradıcılıq, incəsənət və onun bir qolu olan rəssamlıq haqqında onlarla söhbət etmək, iş aparmaq lazımdır. Bunun üçün təlim prosesinnin 4 ünsüründən – qavrama, anlama, möhkəmlənmə və tətbiqetmədən istifadə edilir. Lakin həmin ünsürlərin əsas mahiyyəti, izahı zamanı bədii fon əsas götürülür, bədiiliklə əlaqələndirilir. *Qavrama – təlim* prosesində uşaqların yeni fakt və hadisələr haqqında məlumatlar öyrənməsidir. Məsələn, məşğul olduqları otaqların interyerləri, əşyaların düzülüşü forması və ya rəsm albomlarının, fırçaların, habelə bilavasitə istifadə etdikləri, əlaqədə olduqları əşyaların xarici görünüşü, yaranması, dizaynı haqda geniş məlumat verilməlidir. Uşaqlar əyani gördükləri əşyalar və onların necə hazırlanması, rənglənməsi, naxışlanması haqda geniş məlumatlanarsa, o zaman bütün bu proseslər uşaqların hafizəsində canlanaraq bu yeni bilikləri qavramaq üçün maraq yaranacaqdır. *Anlama* – prosesində uşaqların ətrafda gördükləri əşyalar haqqındakı təsəvvürlərinə istinad edərək bütün bu əşyaların hansı məqsədlər üçün hazırlandığını – yəni insanların rahat yaşamasını təmin etməkdən ötrü yarandığını tam dərk etmə prosesidir. *Möhkəmlətmək* – qazanılmış biliklərin uşaqların hafizəsində uzun müddət saxlanılmasını təmin etməkdən ibarətdir. *Tətbiqetmə* – görmə yaddaşının inkişafı, gördüklərini, öyrəndiklərini fırça ilə kağız üzərində işləmək isə şüurun inkişafının dərinləşməsinə yardım edir. Tətbiqetmə prosesində adətən əllər fəaliyyətdə olur bu isə idrak-təfəkkür prosesində çox mühüm vasitədir.

Bədii, texniki yaradıcılıq və uşaq təfəkkürü… Bu məsələdə hər hansı bir problemlə qarşılaşmaq mümkündürmü? Belə suallara artıq çox onilliklər boyu cavab axtaran psixoloqlar, incəsənət xadimləri və s. uzunmüddətli tədqiqatlardan sonra bu qənaətə gəlirlər ki, uşaqlarda bu fəaliyyət ən kiçik vaxtlardan, erkən yaşlarından başlanmalıdır. Bütün növ bədii və texniki fəaliyyətlər – incəsənətlə ilk təmaslıq ona verilən ilk qiymət, fantaziya əsasında nə isə yaratmaq, qurmaq. Bu qabiliyyətlər uşaqlarda hələ məktəbəqədər yaşlarda yaranır. Burada tərbiyəçinin əsas rolu, bütün vasitələrdən istifadə edərək onların zehnində, təfəkküründə müxtəlif növ bədii yaradıcılığın möhkəmləndirilməsi üçün əsas şəraiti yaratmaqdan ibarət olmalıdır.

Onu da qeyd etmək lazımdır ki, uşaqlarda bədii və texniki fəaliyyət prosesləri hamıda eyni cür getmir. Tədqiqatçı psixoloqlar bədii fəaliyyətin üç əsas növünə: qavramaq, icra etmək və yaradıcılıq qabiliyyətinə eyni istiqamətdən yanaşaraq tədqiqat aparmışlar və belə bir nəticəyə gəlmişlər ki, əgər təsviri fəaliyyətdə uşaqlara rəsm çəkməyi, yapma öyrədirlərsə o zaman qavramaq qabiliyyəti az inkişaf edir (yəni bütün diqqət verilən tapşırığı icra etməyə yönəlir), ədəbi sahədə isə uşaqların bütün diqqəti ancaq qavramaq sahəsinə yönəldiyi üçün bu sahədə daha çox inkişaf edir. Musiqi ilə aparılan təcrübədə isə adət üzrə əsaslı surətdə ifa öyrətdikləri üçün improvizasiyaya lazımi diqqət yetirilir.

Nəticə

Problemin başlıca məsələləri ilə əlaqədar aparılan tədqiqatlar nəticəsində irəli sürülən müddəalar bu gün də öz əhəmiyyətini saxlamaqdadır. Axı, məktəbəqədər uşaqlıq

dövrü – hər şeydən öncə incəsənət yaradıcılığı ilə təcrübə əsasında toplanmış ilk tanışlıq, başlanğıc qavrama vərdişidir. Lakin uşaq böyüdükcə, yaşı artdıqca məktəb illərində artıq bu qavrama vasitəsi seçdiyi sahə üzrə talanta, istedada çevrilir. Yalnız buna əsaslanaraq uşaqlarda bədii və texniki yaradıcılığı daha səmərəli şəkildə inkişaf etdirmək olar. Uzun illər boyu tədqiqatçıların apardıqları araşdırmalara, psixoloqların təcrübəsinə, elmi açıqlamalarına əsasən belə qəbul olunub ki, incəsənət, ümumiyyətlə bədii yaradıcılıq uşaqların estetik zövqünü inkişaf etdirməklə yaşanı, onların bir şəxsiyyət kimi formalaşmasında mühüm rol oynayır, bir «mən» kimi öz sözünü deməkdə, sübut etməkdə, yardımçı olur.

ƏDƏBİYYAT SİYAHISI
(References)

1. Uşaq bağçasının məktəbəhazırlıq qrupunda təlim və tərbiyə proqramı. Bakı: 1982, 79 s.
2. Uşaq bağçasında tərbiyə və təlim proqramı. Bakı: 1985, 222 s.
3. Ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün proqramlar. Bakı: 1988, 143 s.
4. Xəlilov V.C. Ümumtəhsil məktəblərində estetik tərbiyənin inkişafı yolları. Bakı: Maarif, 1991, 176 s.
5. Xəlilov V.C. Məktəbli mədəniyyəti. Bakı: Nərgiz, 2002, 52 s.
6. Xəlilov V.C. İncəsənət üzrə dərsliklər: uğurlarımız, problemlərimiz // Azərbaycan məktəbi, 2006, №4 s. 99-104.
7. Бегак Б.А. Воспитание искусством. М.: Просвещение, 1981, 94 с.
8. Борев Ю.Б. Эстетика. М.: Политиздат, 1988, 496 с.
9. Василевская Л.А. Особые рисования. М.: 1984, 92 с.
10. Волков Н.П. Приобщение школьников к творчеству. М.: Посвещение, 1982, 144 с.
11. Глинка В.А. Искусство современного интерьера школы. М.: 1984, 116 с.
12. Гончаров Н.Ф. Эстетическое воспитание школьников средствами искусства и действительности М.: Педагогика, 1986, 128 с.